Heydər Əliyev - 101

UOT 94(479.24)

QABİL ƏLİYEV
tarix elmləri doktoru, professor
Bakı Dövlət Universiteti,
Azərbaycan Universiteti
ORCID ID : 0000-0002-2372-5907
qabilalioglu1956@gmail.com

HEYDƏR ƏLİYEV VƏ TÜRK BİRLİYİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/21-27

Təqdim edilən məqalədə Azərbaycanın ulu öndərinin Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri ilə Azərbaycanın qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi və möhkəmləndirilməsi sahəsində fəaliyyəti araşdırılmış, Türk Birliyi yaradılması uğrunda qətiyyətli, yeni siyasi reallıqları nəzərə almaqla apardığı mübarizəsi konkret faktlarla təhlil edilmişdir. Azərbaycan xalqının ümumilli liderinin bu siyasi xəttinin İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin Türk Dövlətləri Birliyi daxilində inteqrasiya prosesinə müsbət təsiri məsələlərinə xüsusi diqqət yetirilmişdir.

Açar sözlər: Türkiyə, Mərkəzi Asiyanın türk dövlətləri, ortaq tarixi ənənələr, milli dəyərlər, inteqrasiya.

Giriş. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çoxcəhətli fəaliyyətində Türk Dünyası daxilində əlaqələrinin inkişaf etdirilməsi və dərinləşdirilməsi mühüm yer tutmuşdur. Ulu öndər respublikamızda yenidən hakimiyyətə gəldikdən sonra Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri ilə siyasi, iqtisadi, mədəni, nəqliyyat və kommunikasiya sahələrində əməkdaşlığa xüsusi diqqət yetirmişdir. O, çıxışlarında, rəsmi görüşlərində türk xalqlarının ortaq mənəvi dəyərlərə malik olmalarını yüksək qiymətləndirmiş, bu zəmində münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını zəruri saymışdır. Bu baxımdan, ulu öndərin aşağıdakı fikirləri günümüz üçün çox aktualdır: "bizim türk mənşəli, türkdilli xalqlarımızın, tarixi, milli, mənəvi ənənələri eyni və yaxud bənzər olan xalqlarımızın hər birinin müstəqil dövlət kimi mövcud olması, onların həm dövlətlərarası əlaqələrinin inkişaf etdirilməsi, möhkəmləndirilməsi, həm də bu əlaqələrdən istifadə edərək tarixi irsimizi, keçmişimizi canlandırmaq və onun əsasında xalqlarımızı daha da yaxınlaşdırmaq dünyanın indi mürəkkəb proseslər gedən bir dövründə çox mühümdür" [1, s.248].

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublukasının prezidenti kimi fəaliyyətə başladığı ilk günlərdən Türkiyə Cümhuriyyətinə, türk xalqına böyük hörmət və ehtiramını bildirmiş, Azərbaycan və Türkiyə arasında bütün sahələrdə əlaqələri genişləndirmək və dərinləşdirmək xətti götürmüşdür. O, 1993-cü il oktyabrın 26-da "Türkiyə Cümhuriyyəti-70" elmi-praktik konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunda Azərbaycan və türk xalqları arasında qardaşlıq əlaqələrinin dərin köklərə malik olduğunu bildirmişdir: "Soykökümüzün, adət və ənənələrimizin, bir çox müqəddəs mənəvi sərvətlərimizin ayrılmaz tellərlə bir- birinə bağlı olduğu türk xalqının bu böyük bayramı eyni zamanda Azərbaycan üçün də əziz gündür" [2, s.141]. Həmin müraciətində ulu öndər Türkiyəyə, Mustafa Kamal paşa Atatürkə böyük sevgisini belə ifadə etmişdi: "Türkiyə Cümhuriyyətinin banisi, iyirminci əsrin bəşəriyyətə verdiyi böyük dühalardan Mustafa Kamal Atatürkün azadlıq və demokratiya ideallarına sonsuz məhəbbəti, sərkərdəlik və dövlətçilik məharəti sayəsində türk xalqı tarixin çətin sınaqlarından çıxıb qurtuluş tapdı. Dünya Türkiyə Cümhuriyyəti adlı azad və məğrur bir məmləkəti tanımalı oldu. Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir" [2, s.141].

Ümummilli lider Heydər Əliyev M.K.Atatürkün Türkiyə Cümhuriyyətini yaratmaqla təkcə öz xalqı üçün deyil, həm də bütün Türk Dünyası üçün çox böyük xidmət göstərdiyini minnətdarlıqla qeyd etmişdir: "Türkiyə xalqı çoxəsrlik tarixində böyük nailiyyətlər əldə etmişdir. Ancaq onun ən böyük nailiyyəti Türkiyə Cümhuriyyətinin yaranması və bu cümhuriyyətin yetmiş ildən artıq bir müddətdə yaşaması və inkişaf etməsidir. Türkiyə Cümhuriyyətinin bu dövrdə keçdiyi yol çox əzəmətli, çox şərəfli yoldur və Türkiyə xalqını bugünkü xoşbəxt həyata gətirib çıxarıbdır. Biz bu tarixi keçmişi izləmişik, onu bu gün də çox böyük iftixar hissi ilə yad edirik. Bu tarixi yad edərək, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə hörmət və ehtiramımızı bildirərək bu cümhuriyyətin yaradıcısı böyük Mustafa Kamal Atatürkü dərin hörmət və ehtiramla xatırlayırıq. Onun həm Türkiyə Cümhuriyyəti üçün, həm də bütün türk dünyası, türk xalqları üçün etdiyi xidmətləri böyük minnətdarlıqla yad edirik" [3, s.118-119].

Ulu öndər bir neçə il sonra ona Beynəlxalq Atatürk sülh mükafatının təqdim olunması mərasimində nitqində yenidən bu məsələyə toxunmuş, M.K.Atatürkün çox ağır və mürəkkəb şəraitdə Türkiyənin müstəqilliyinin qorunub saxlanması, müasir Türkiyə Cümhuriyyəti qurulmasında misilsiz rol oynamasını, bu nəhəng tarixi şəxsiyyətin bütün Türk Dünyası üçün böyük tarixi xidməti kimi dəyərləndirmişdir: "Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Zaman keçdikcə onun şəxsiyyətinin nə qədər böyük olduğu daha da hiss ediləcəkdir, dərk olunacaqdır, bilinəcəkdir. Mustafa Kamal Atatürkün türk xalqı, Türkiyə qarşısında və eyni zamanda türk dünyası qarşısında, beynəlxalq aləmdə çox böyük xidmətləri olubdur. ... O hələ Türkiyə Cümhuriyyətinin qurub yaradana qədər də böyük qəhrəmanlıqlar göstərmiş, istiqlal savaşına başçılıq etmiş və Birinci dünya müharibəsindən sonra Osmanlı imperatorluğu dağılan zaman Türkiyəni dağıtmaq, parçalamaq, məhv etmək istəyən ölkələrin, qüvvələrin hamısının qarşısının alınmasını təşkil etmiş və buna nail olmuşdu. ... Mustafa Kamal Atatürkün ən böyük nailiyyəti bir də ondan ibarətdir ki, onun qurduğu, yaratdığı və ömrünün sonuna qədər başçılıq etdiyi Türkiyə Cümhuriyyəti o, həyatdan gedəndən sonra ... yaşayır, inkişaf edir və onun vəsiyyətlərini həyata keçirir, işinə sadiqliyini göstərir, onun yolu ilə gedir [4, s.421, 422].

Ümumilli liderimiz Atatürk irsinin, Türkiyə Cümhuriyyəti tarixinin öyrənilməsi, araşdırılmasının bütün Türk Dünyası üçün böyük əhəmiyyətə malik olmasını xüsusi vurğulamışdır: "Atatürkün məşhur "Yurdda sülh, cahanda sülh" ideyasından doğan işığa doğru irəliləyən müasir Türkiyə dövlətinin yeritdiyi daxili və xarici siyasətin, sosial-iqtisadi və mədəni tərəqqi təcrübəsinin elmi-nəzəri tədqiqat obyektinə çevrilməsi, öyrənilməsi böyük əhəmiyyət kəsb edir" [2, s.141]. Ulu öndər Türkiyə Cümhuriyyətinin keçdiyi tarixi yolu yeni müstəqillik qazanmış türk dövlətləri, bütün türk dünyası üçün örnək sayırdı: "türk dünyası yenidən qalxmağa başlayıbdır. Türk xalqlarının əksəriyyəti müstəqillik əldə edib. Onlar öz müstəqil dövlətlərini qurublar. Özləri öz talelərinin sahibi olublar. Türkiyə Cümhuriyyəti müstəqilliyini əldə etmiş bütün bu türk-köklü, türkdilli dövlətlər, xalqlar üçün örnəkdir, təcrübə mənbəyidir. Biz bu örnəkdən, təcrübə mənbəyindən səmərəli istifadə etməyə çalışırıq. ... Çünki Türkiyə Cümhuriyyəti inkişaf yolunda artıq böyük bir məsafəni qət edibdir. 70 ildən çoxdur ki, cümhuriyyət yaşayır və əzəmətli bir dövlətə çevrilibdir" [5, s.178-179].

Ulu öndər başqa bir çıxışında Türkiyə Cümhuriyyətinin tarixi təcrübəsindən Azərbaycanın hərtərəfli yararlanmağa çalışdığını qeyd etmişdi: "Azərbaycan müstəqil bir dövlət kimi gənc dövlətdir, ancaq bu müstəqillik yolunda dönməzdir, yenilməzdir. ... Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş nailiyyətləri özümüz üçün örnək hesab edirik. Bu təcrübədən, əldə olunan bu nailiyyətlərdən Azərbaycanın xüsusiyyətlərinə uyğun istifadə etməyə çalışırıq. Bu təcrübə də demokratiya təcrübəsidir, insan azadlığı təcrübəsidir, sərbəst iqtisadiyyat təcrübəsidir, söz azadlığı təcrübəsidir. Bunların hamısı Azərbaycanda bərqərar olmaqdadır" [6, s.126-127].

Ümummilli lider hər fürsətdə Azərbaycanın müstəqilliyini bərpa etdiyi zaman Türkiyənin birinci olaraq onu tanıması və müdafiə etməsini minnətdarlıqla qeyd etmişdir: "Azərbaycan Respublikasının müstəqilliyini dünya ölkələri arasında ilk dəfə Türkiyə tanımışdır. Bu isə o vaxt Azərbaycanın dünya dövlətləri, dünya birliyi tərəfindən tanınmasında çox böyük addım olmuşdur" [7, s.227]. Heydər Əliyev digər bir çıxışında bu məsələyə yenidən toxunmuşdur: "1991-ci ilin noyabr ayında ... Türkiyə Cümhuriyyəti Azərbaycanı dünyada birinci olaraq tanıdı. Bu, Türkiyənin cəsarətli addımı və Azərbaycana qardaşlıq münasibətinin nəticəsi idi. Azərbaycanın öz müstəqilliyinə nail olması və

bütün dünya dövlətlərinin Azərbaycanı tanıması üçün Türkiyənin çox böyük köməyi olmuşdur" [8, s.233]. Heydər Əliyev Azərbaycanın müstəqilliyini bərpa etdiyi zaman Türkiyənin dünya ölkələri üçün örnək olacaq bir addım atdığını Türkiyənin o zamankı prezidenti Süleyman Dəmirəllə 1995-ci ilin dekabrında Bakıda görüşü zamanı bir daha minnətdarlıqla xatırlamışdır: "Azərbaycan ilk dəfə müstəqilliyini əldə edərkən Türkiyə Cümhuriyyəti dünya ölkələri içərisində birinci olaraq Azərbaycanın müstəqilliyini tanımış və Azərbaycanın müstəqilliyini başqa ölkələrin tanıması üçün, beynəlxalq təşkilatların qəbul etməsi üçün lazımi səylər göstərmiş və bizə kömək etmişdir" [9, s.138].

Heydər Əliyev Türkiyənin Azərbaycanın müstəqilliyini dünyada birinci olaraq tanımasını böyük fədəkarlıq kimi qiymətləndirmişdir: "Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi dünyada ilk dəfə onun müstəqilliyini tanıyan dövlət Türkiyə olmuşdur. Bu, hələ Sovet İttifaqının mövcud olduğu bir vaxtda baş vermişdir və onu göstərir ki, Azərbaycanın milli azadlığını, istiqlaliyyətini Türkiyə xalqı, Türkiyə hökuməti nə qədər istəmişdir" [10, s.119].

Ulu öndər yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının Türkiyənin yardımlarına böyük ehtiyacı olduğunu vurğulamışdır: "İstiqlaliyyət qazanmış Azərbaycan öz müstəqilliyini möhkəmləndirmək, daimi etmək, əbədi etmək üçün çalışır və çarpışır. Bu işdə biz bütün dünya birliyinin yardımına, dünyanın ədalətli insanlarının yardımına möhtacıq. Eyni zamanda bu işdə Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı ilə əlaqələrin Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün çox böyük əhəmiyyəti var və biz buna böyük ümid bəsləyirik" [11, s.229].

Heydər Əliyev 1994-cü il fevralın 9-da Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı üzünü Türkiyə millət vəkillərinə, hökumət rəsmilərinə tutaraq Mustafa Kamal paşanın Türkiyə Cümhuriyyətinin Türk Dünyasının lideri kimi üçün çox önəmli bir missiyanı öz üzərinə götürməsi gərəkliyi haqqında məhşur fikrini xatırlatmışdır: "Burada mən Mustafa Kamal Atatürkün çox dəyərli bir fikrini yadınıza salmaq istəyirəm, çünki onun bu fikri Türkiyənin üzərinə düşən vəzifələrin çox böyük olduğuna və Mustafa Kamal Atatürkün çox uzaqgörən bir şəxsiyyət olduğuna dəlalət edir. O, Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında demişdir: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostumuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların, tarixi köklərin bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır" [12, s.233].

Heydər Əliyev Azərbaycanda Türkiyəyə böyük sevgi olduğunu, bütün xalqın Türkiyənin bütün uğurlarına ürəkdən sevindiyini qeyd etmişdir: "Azərbaycanda hər bir vətəndaş Türkiyəyə böyük məhəbbət və sevgi hissi bəsləyir, Türkiyənin yüksəlməsini, Türkiyənin artmasını istəyir, Türkiyənin daha da güclü olmasını istəyir. Türkiyənin daha da inkişaf etməsini istəyir. Böyük sınaqlardan keçən dostluq və qardaşlıq əlaqələri bizi məhz bu yola gətirib çıxarmışdır, bizdə məhz belə məhəbbət və sevgi hissləri yaratmışdır" [13, s.74].

Ulu öndər Türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsi üçün dövlət başçıları səviyyəsində, hökumət nümayəndələri arasında görüşlərə böyük əhəmiyyət verirdi: "Orada hansı sənədin imzalanıb- imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti – bunlar hamısı respublikalarımızın həm iqtisadi, həm mədəni, elmi, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır" [14, s.248]. İstanbulda Türk Dövlətləri başçılarının 2-ci zirvə toplantısının müvəffəqiyyətlə keçməsi və burada "İstanbul Bəyannaməsi" qəbul edilməsindən məmnunluq duyan Heydər Əliyev bildirmişdi: "Xalqlarımızın, ölkələrimizin bir kökdən, bir mənşədən olması, qohum xalqlar olması, onların əsrlər boyu tarixi, milli, mədəni, dini ənənələrinin bərabər, birgə olması indi müstəqillik əldə etmiş cümhuriyyətlərin daha yaxın əməkdaşlıq etməsinə şərait yaradır və bizim üçün geniş imkanlar açır. Biz bu imkanlardan istifadə etməliyik. Azərbaycan Respublikası adından tam qətiyyətlə deyə bilərəm ki, biz bu ənənənin davam etməsinin tərəfdarıyıq və bu imkanlardan istifadə etməyə bundan

sonra da çalışacağıq. ... biz bu tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik. Bizim həm iqtisadi, həm ticarət, həm də elmi, mədəni, təhsil sahəsində əlaqələrimiz bundan sonra genişlənəcəkdir. Bu gün burada imzalanmış bəyannamə, hesab edirəm ki, bunun üçün yeni əsas yaradır. Mən əmin olduğumu bildirmək istəyirəm ki, bu bəyannamə həyata keçiriləcəkdir. Biz, Azərbaycan tərəfi bu bəyannamənin, anlaşmanın, sazişin ardıcıl olaraq həyata keçirilməsinə çalışacağıq və əlimizdən gələni əsirgəməyəcəyik" [15, s.253].

Ümumilli lider türk xalqlarının bir-birinə yaxınlaşmalarının, birlikdə çıxış etmələrinin Türk Dünyasının gələcəyi üçün böyük uğurlar gətirəcəyini inamla qeyd edirdi: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir" [16, s.416].

Ulu öndər türk dövlətləri başçılarının müntəzəm toplantı keçirmələrini "gözəl bir ənənə", "çox sevindirici hal" kimi dəyərləndirirdi. O, 1995-ci il avqustun 28-də Bişkekdə keçirilən türkdilli dövlətlər başçılarının 3-cü zirvə toplantısında çıxışında vurğulamışdı: "Çoxəsrlik tarixi boyu dünya sivilizasiyası xəzinəsinə sanballı töhfələr vermiş, coğrafi yaxınlığı ilə, tarixi tale, mədəniyyət, adət-ənənə, din və dil birliyi kimi sarsılmaz tellər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz sıx və səmərəli əməkdaşlıq üçün çox geniş imkanlara malikdirlər. ... Biz vacib problemlərimizin həll olunması üçün bir-birimizə kömək göstərməli, yardım əlimizi uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik. Bütün bunlara görə mən bu görüşümüzə çox böyük əhəmiyyət verirəm. Belə görüşlərin daimi xarakter almasını ürəkdən alqışlayıram. Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi – bütün bunlar bizim strateji əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa imkan verir" [17, s.224-225].

Heydər Əliyev türk dövlətlərinin hər birinin uğuruna sevinir, bunu bütün Türk Birliyinin uğuru hesab edirdi. Bu baxımdan, onun 1995-ci il avqustun 9-da Almatıda böyük qazax şairi Abay Kunanbayevin 150 illik yubileyində çıxışı ibrətamizdir: "Qazaxıstan dünyanın böyük dövlətlərindəndir, dünya birliyində layiqli yer tutur və qazax xalqı, Qazaxıstanın müstəqil dövlətı milli dövlət quruculuğu, xalqın taleyi, bu günü və gələcəyi ilə bağlı məsələləri uğurla həll edir. Bu isə Abayın ideyalarının həyata keçməsinin parlaq təcəssümüdür. Bu bayram Abay ideyalarının təntənəsi bayramı, milli bayram, qazax xalqının millilik bayramı, onun milli müstəqilliyinin, milli azadlığının bayramıdır" [18, s.163-164].

Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən və məqsədyönlü siyasət nəticəsində ölkəmizdə sabitlik və əmin-amanlıq mühitinin bərqərar olması yaxın və uzaq qonşu dövlətlərlə, xüsusən də Türk cümhuriyyətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq qurulmasına və qarşılıqlı münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdirilməsinə, beynəlxalq təşkilatların yüksək tribunalarından Türk xalqlarının mənafelərinin fəal şəkildə müdafiə olunmasına imkan vermişdir. Azərbaycanın regionda lider dövlətə çevrilməsi qlobal miqyasda imkanlarının genişlənməsinə, beynəlxalq münasibətlər sistemində, eləcə də Türk dövlətləri ilə əlaqələrdə etibarlı tərəfdaş kimi nüfuzunun artmasına gətirib çıxarmışdır

Ulu öndərin layiqli siyasi varisi, möhtərəm Prezidentimiz İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizin inkişafında yeni mərhələ başlamışdır. Azərbaycan dövləti iqtisadi, siyasi və hərbi cəhətdən daha da güclənmiş, xalqımızın mübarizə ruhu, əzmkarlığı daha da yüksəlmişdir. 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə, beynəlxalq arenada nüfuzunun artmasına, Türk dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın daha da dərinləşməsinə şərait yaratmışdır.

Bu cəhət özünü 2022-ci ildə Azərbaycanla digər Türk dövlətləri arasında ticarət dövriyyəsinin əvvəlki illə müqayisədə 70 faiz artaraq 5,23 milyard ABŞ dollarından 7,17 milyard ABŞ dolları həcmində artmasında aydın şəkildə büruzə vermişdir. Qeyd etmək maraqlıdır ki, 2022-ci ildə Azərbaycanın bütün türk dövlətləri ilə ticarət dövriyyəsində artım dinamikası müşahidə olunmuşdur. Türkmənistanla ticarət dövriyyəsi ən çox – 5,1 dəfə artmış, 2021-ci ildəki 105,23 milyon dollardan 535,4

milyon dollara çatmışdır. Qazaxıstanla dövriyyəmiz 2022-ci ildə əvvəlki ilə nisbətən 4,4 dəfə artaraq 135,8 milyon dollardan 598,5 milyon dollaradək yüksəlmişdir. Özbəkistanla ticarətimizdə 64 faizlik artım baş vermiş, dövriyyəmiz 111,9 milyon dollardan 2022-ci ildə 183,3 milyon dollaradək çoxalmışdır. Mərkəzi Asiyanın digər türk dövləti olan Qırğızıstanla da ticarət dövriyyəmizdə 17 faiz artım qeydə alınmışdır. İki dövlət arasındakı dövriyyə 2021-ci ildəki 9,2 milyon dollardan 2022-ci ildə 10,8 milyon dollaradək yüksəlmişdir. Türk dünyasında ən böyük ticarət partnyorumuz qardaş Türkiyə ilə ticarət dövriyyəmiz 2021-ci ildə 4,7 milyard dollar olduğu halda, 2022-ci ildə 5,8 milyard dollaradək yüksəlmişdir [19].

Azərbaycan Respublikasının digər türk dövlətləri ticarət dövriyyəsinin bu cür böyüməsi türk dövlətləri arasındakı iqtisadi əlaqələrin xüsusən son 2 ildə dərinləşməsi ilə birbaşa bağlıdır. Respublikamızın rəhbərliyi bu istiqamətdə strateji əməkdaşlığı daha da gücləndirmək əzmindədir. Son iki il ərzində Azərbaycan prezidentinin Mərkəzi Asiya respublikalarına 9 dəfə səfər etməsi bunun aydın göstəricisidir. Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri ilə ticarət dövriyyəsi 1922-ci ildə əvvəlki ilə nisbətən 3 dəfə, 2023-cü ilin ilk yeddi ayında isə daha 50 faiz artmışdır. Həmçinin birgə investisiya fondları yaratmaqla maşınqayırma, gəmiqayırma, pambıqçılıq, ipəkçilk və digər sahələrə yaxın 3 ildə 1 milyard ABŞ dolları vəsait qoyulması razılaşdırılmışdır [20].

TDT ölkələri arsında aqrar sahədə də əməkdaşlığı inkişaf etdirmək və dərinləşdirmək üçün böyük potensial vardır. Bu gün təqribən 160 milyon nəfər əhalisi olan TDT ölkələri dünyanın kənd təsərrüfatı üçün ümumi yararlı torpaq ehtiyatlarının 6,1faizinə, o cümlədən əkin sahələrinin 3,9 faizinə malikdirlər. Öz növbəsində bu təşkilata üzv dövlətlər qlobal kənd təsərrüfatı istehsalının 2,2 faiziini, kənd təsərrüfatı və emal olunmuş ərzaq məhsulları ixracının 2 faizini təmin edirlər [21]. Günümüzdə TDT-na üzv dövlətlər bu nəhəng potensialdan yararlanmağa, kənd təsərrüfatı və ərzaq sahələrində qarşılıqlı ticarət dövriyyəsinin artırılmasına xüsusi diqqət yetirirlər. Həmçinin qarşılıqlı ixtisaslaşdırılmış investisiyaların stimullaşdırılması, aqrar sektorda müasir texnologiyalar və qabaqcıl təcrübə mübadiləsi, o cümlədən torpaq və su ehtiyatlarının səmərəli idarə edilməsi, ticarətin təşviqi və s. sahələrdə əməkdaşlığı dərinləşdirməyə səy göstərirlər. Qabaqcıl təcrübələrin tətbiqi baxımından, Qırğızıstanın Azərbaycanla birlikdə "ağıllı" kənd təsərrüfatı sahəsindəki əməkdaşlığı diqqətəlayiqdir.

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2023-cü il martın 16-da Türkiyənin paytaxtı Ankara şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) növbədənkənar Zirvə toplantısı Türk birliyinin yeni daha yüksək zirvəyə yüksəlməsi ilə əlamətdar olmuşdur. Bu fövqəladə zirvə toplantısında qardaş Türkiyədəki 6 fevral fəlakəti əsas müzakirə mövzusu olmuş, fövqəladə halların idarə edilməsi sahəsində yardımlaşmanı inkişaf etdirmək və Türkiyəyə humanitar yardım göstərilməsi qərara alınmışdır. Bununla da Türk dövlətləri bir daha dünyaya nümayiş etdirmişlər ki, ən ekstremal durumda, böyük fəlakətlə üzləşdikləri zamanda belə, türk özünü, milli kimliyini, məğrurluğunu itirmir, bütün ağrılara, acılara, fəlakətlərə, sınaqlara mərdi-mərdanə sinə gəlir.

Həmin görüşdə Azərbaycan Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının bütün türklər üçün arxalanacaqları böyük güc olduğunu və öz fəaliyyətində bunu daim nəzərə almalı olduğunu xüsusi vurğulamışdır: "Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır" [22].

Nəticə. "Türk dünyasının ağsaqqalı Heydər Əliyevin" [23] başlatdığı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən Türk Birliyi yaradılması və inkişaf etdirilməsi strategiyası təkcə Anadoluda, Qafqazda və Mərkəzi Asiyada yaşayan və müstəqil dövlətə malik türk xalqları üçün deyil, həm də bütün dünyaya səpələnmiş, fərqli ölkələrdə yaşayan türklər üçün ümid işığı, güvənc yeri kimi son dərəcə qiymətlidir və gələcəyə daha inamla baxmağa imkan verir.

ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Türk Dövlətləri başçılarının 2-ci zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 18 oktyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. 2-ci kitab. B., Azərnəşr, 1997, 604 s.

2. Əliyev H.Ə. "Türkiyə Cümhuriyyəti-70" elmi-praktik konfransının iştirakçılarına 26 oktyabr 1993-cü il // Müstəqilliyimiz əbədidir. 1-ci kitab, 612 s.
3. Əliyev H.Ə. Türkiyə Respublikasının Baş Naziri Məsud Yılmazla Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə nitq. Respublika Sarayı. 14 aprel 1996-cı il // Müstəqilliyimiz əbədidir. 6-cı kitab. B., Azərnəşr, 1998, 512 s.
4. Əliyev H.Ə. Beynəlxalq Atatürk sülh mükafatının təqdim olunması mərasimində nitq. Ankara, Cankaya köşkü. 1 noyabr 1999-cu il // Müstəqilliyimiz əbədidir. 22-ci kitab. B., Azərnəşr, 2007, 528 s.
5. Əliyev H.Ə. Türkiyə Prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə nitq. Respublika Sarayı 8 dekabr 1995-ci il // Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 5-ci kitab. B., Azərnəşr, 1998, 500 s.
6. Əliyev H.Ə. Türkiyə Respublikasının Baş Naziri Məsud Yılmazın şərəfinə rəsmi ziyafətdə nitq. 14 aprel 1996-cı il // Müstəqilliyimiz əbədidir. 6-cı kitab. B., Azərnəşr, 1998, 512 s.
7. Əliyev H.Ə. Türkiyə Cümhuriyyəti prezidentinin iqamətgahı "Çankaya" köşkündə rəsmi qarşılanma mərasimində nitq. 8 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. 1-ci kitab. B., Azərnəşr, 1997, 612 s.
8. Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisində çıxış. 9 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. 1-ci kitab. B., Azərnəşr, 1997, 612 s.
9. Əliyev H.Ə. Türkiyə Prezidenti Süleyman Dəmirəlin şərəfinə rəsmi ziyafətdə nitq "Gülüstan" Sarayı 7 dekabr 1995-ci il // Müstəqilliyimiz əbədidir. 5-ci kitab. B., Azərnəşr, 1998, 500 s.
10. Əliyev H.Ə. Türkiyə Respublikasının Baş Naziri Məsud Yılmazla Azərbaycan ictimaiyyəti nümayəndələrinin görüşündə nitq. Respublika Sarayı. 14 aprel 1996-cı il // Müstəqilliyimiz əbədidir. 6-cı kitab. B., Azərnəşr, 1998, 512 s.
11. Əliyev H.Ə. Ankarada "Çankaya" köşkündə Azərbaycan prezidentinin şərəfinə ziyafətdə nitq. 8 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. 1-ci kitab. B., Azərnəşr, 1997, 612 s.
12. Əliyev H.Ə. Türkiyə Böyük Millət Məclisində çıxış. 9 fevral 1994-cü il // Müstəqilliyimiz əbədidir. 1-ci kitab. B., Azərnəşr, 1997, 612 s.
13. Əliyev H.Ə. Türkiyə prezidenti Süleyman Dəmirəl ilə Azərbaycan Respublikası Milli Məclisi üzvlərinin görüşündə nitq 8 dekabr 1995-ci il // Müstəqilliyimiz əbədidir. 5-ci kitab. B., Azərnəşr, 1998, 500 s.
14. Əliyev H.Ə. Türk Dövlətləri başçılarının 2-ci zirvə toplantısında iştirak etmək üçün İstanbula yola düşərkən Binə hava limanında jurnalistlərə müsahibə. 18 oktyabr 1994-cü il // Müstəqilliyimiz əbədidir. İkinci kitab. B., Azərnəşr, 1997, 608 s.
15. Əliyev H.Ə Türk Dövlətləri başçılarının 2-ci zirvə toplantısında qəbul edilmiş "İstanbul Bəyannaməsi"nin imzalanma mərasimində çıxış. 19 oktyabr 1994-cü il //. Müstəqilliyimiz əbədidir. İkinci kitab. B., Azərnəşr, 1997, 608 s.
16. Əliyev H.Ə. Türk xalqlarının dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının iştirakçılarına təbrik. 20 oktyabr 1994-cü il //. Müstəqilliyimiz əbədidir. İkinci kitab. B., Azərnəşr, 1997, 604 s.
17. Əliyev H.Ə.Türkdilli dövlətlər başçılarının 3-cü zirvə toplantısında çıxış Bişkek, 28 avqust 1995-ci il // Müstəqilliyimiz əbədidir. 4-cü kitab. B., Azərnəşr, 1997, 528 s.
18. Əliyev H.Ə Böyük qazax şairi Abay Kunanbayevin 150 illik yubileyində iştirak edən dövlət başçılarının və nümayəndə heyətləri rəhbərlərinin şərəfinə rəsmi qəbulda nitq Almatı 9 avqust 1995-ci il // Müstəqilliyimiz əbədidir. 4-cü kitab. B., Azərnəşr, 1997, 528 s.
19. Bakının türk dünyası ilə 15 milyardlıq hədəfi... / Axar.az, 16.03.2023. URL: https://axar.az/news/iqtisadiyyat/726878.html [19.04.2024].
20. Ахундов Х. Транспорт, энергетика, торговля. Азербайджан и Центральная Азия усиливают интеграцию / Caliber.az, 19 сентября 2023. URL: https://caliber.az/post/190464/ [19.04.2024].
21. Ахундов Х. Тюркское единство: от политики до аграрного сектора // Caliber.az, 28 сентября 2023. URL: https://caliber.az/post/193147/ [19.04.2024].
22. Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə İlham Əliyevin nitqi / 16 mart 2023. URL: https://president.az/az/articles/view/59195 [19.04.2024].
23. Heydər Əliyev Türk dünyasının ağsaqqalı idi – Hikmət Çətin / Axar.az, 12.03.2023. URL: https://axar.az/news/toplum/725681.html [19.04.2024].

ГАБИЛЬ АЛИЕВ
доктор исторических наук, профессор
Бакинский государственный университет,
Азербайджанский университет

ГЕЙДЕР АЛИЕВ И ТЮРКСКОЕ СОДРУЖЕСТВО

В представленной статье исследована деятельность великого вождя Азербайджана в развитии и укреплении взаимоотношений между Турцией и тюркскими государствами Средней Азии и Азербайджана, а также на основе конкретных фактах проанализирована его решительная, учитывающая новые политические реалии борьба за формирование Тюркского Содружества. Особое внимание было уделено вопросам положительного влияния успешного продолжения Ильхамом Алиевым этой политической линии общенационального лидера азербайджанского народа на интеграционный процесс в рамках Союза Тюркских Государств.

Ключевые слова: Турция, тюркские государства Центральной Азии, общие исторические традиции, национальные ценности, интеграция.

GABIL ALIYEV
doctor of historical sciences, professor
Baku State University,
Azerbaijan University

GEYDER ALIYEV AND THE TURKIC COMMONWEALTH

In the presented article, the activities of the great leader of Azerbaijan in the development and strengthening of relations between Turkey and the Turkic states of Central Asia and Azerbaijan are studied, and on the basis of specific facts, his decisive struggle for the formation of the Turkic Commonwealth is analyzed, taking into account new political realities. Particular attention was paid to the positive impact of Ilham Aliyev's successful continuation of this political line of the national leader of the Azerbaijani people on the integration process within the framework of the Union of Turkic States.

Keywords: Turkey, Turkic states of Central Asia, common historical traditions, national values, integration.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d.İsmayıl Məmmədov.